# İstedadlı alim, görkəmli pedaqoq, vətənpərvər insan

***Əli Qulu oğlu Allahverdiyev 1952-ci il martın 22-də Qərbi Azərbaycanın Göyçə mahalının (Krasnoselo rayonu) Cil kəndində anadan olmuşdur. 1959-1969-cu illərdə Cil kənd orta məktəbində təhsil almışdır. Elə həmin il D.Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun ümumiqtisad fakültəsinin o dövrdə elit ixtisası sayılan, bilavasitə ali məktəblər üçün müəllimlər hazırlayan "siyasi iqtisad" qrupuna qəbul olunmuşdur. 1974-cü ildə həmin institutu müvəffəqiyyətlə bitirərək, "iqtisadçı, siyasi iqtisad müəllimi" ixtisasını almış, Ali və Orta İxtisas Təhsili Nazirliyinin göndərişi ilə APİ-nin (indiki ADPU-nun) "Siyasi iqtisad" kafedrasında əmək fəaliyyətinə başlamışdır. Həmin kafedrada assistent, baş müəllim, dosent, professor vəzifələrində çalışmışdır. 1975–1976-cı illərdə keçmiş sovet ordusunun sıralarında hərbi xidmətdə olmuşdur. 1997-ci ildə ADPU-da "İqtisadi və sosial fənlər" kafedrasının müdiri seçilmişdir.***

1978–1981-ci illərdə Bakı Dövlət Universitetinin qiyabi şöbəsində aspiranturaya daxil olub. Əli Allahverdiyev 1987-ci ildə Daşkənd şəhərində namizədlik dissertasiyası müdafiə edərək, iqtisad elmləri namizədi alimlik dərəcəsi almışdır. Əli Allahverdiyev 2005-ci ildə AMEA-nın İqtisadiyyat İnstitutunun ixtisaslaşdırılmış müdafiə şurasında "Bazar iqtisadiyyatının təşəkkülü prosesində makroiqtisadi dinamik və struktur dəyişikliklərinin tənzimlənməsi problemləri" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. Əli müəllimin müdafiə etdiyi doktorluq dissertasiyasında əldə etdiyi elmi nəticələr həmin dövrdə iqtisad elmində, xüsusən makroiqtisadi nəzəriyyədə, Azərbaycanda keçid iqtisadiyyatı dövrünün təhlili və qiymətləndirilməsində, həmçinin Azərbaycan iqtisadiyyatında struktur dəyişikliklərinin əsas istiqamətlərinin müəyyən edilməsində böyük nailiyyət hesab edilmişdir.



Professor Əli Allahverdiyev 1 dərsliyin, 3 monoqrafiyanın, 4 dərs vəsaitinin, iqtisadi nəzəriyyə üzrə proqram və metodik vəsaitlərin, 200-dən artıq elmi məqalənin müəllifidir. O, pedaqoji fəaliyyəti ilə yanaşı, elmi kadrların hazırlanmasında da fəal iştirak etmiş, uzun müddət AMEA-nın İqtisadiyyat İnstitutunda Müdafiə Şurasının üzvü olmuş, onun bilavasitə rəhbərliyi və rəsmi opponentliyi ilə 20-dən artıq elmi işçi dissertasiya müdafiə edərək iqtisad elmləri üzrə fəlsəfə doktoru və elmlər doktoru alimlik dərəcəsi almışdır.

Professor Əli Allahverdiyev uzun müddət ərzində Təhsil Nazirliyinin iqtisadiyyat üzrə metodiki komissiyasının üzvü, Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının İqtisadiyyat bölməsinin Ekspertlər Komissiyasının üzvü olmuşdur.

2012-2019-cu illərdə Azərbaycan Müəllimlər İnstitutu Quba filialının direktoru vəzifəsində işləmişdir.

Azərbaycan Müəllimlər İnstitutunun Quba filialının direktoru vəzifəsində çalışdığı illərdə Əli Allahverdiyevin zəngin pedaqoji təcrübəsi və yüksək təşkilatçılıq qabiliyyəti ona müxtəlif layihələri uğurla həyata keçirməyə imkan verdi, tədris, təlim-tərbiyə işləri yenidən quruldu, elm ocağının yerləşdiyi bina zövqlə təmir olundu, auditoriyalar günün tələblərinə uyğun olaraq ən müasir tədris avadanlıqları ilə təchiz edildi. Müəllim-tələbə münasibətləri yeni mərhələyə qədəm qoydu, filial ölkənin qabaqcıl təhsil ocaqlarından birinə çevrildi. Təhsil sahəsində aparılan islahatlar prosesi Azərbaycan Müəllimlər İnstitutunun Quba filialından da yan keçmədi. Bu təhsil ocağı Azərbaycan Dövlət Pedaqoji Universitetinin Quba filialına çevrildi, təhsilin keyfiyyəti yaxşılaşdı, elmi-pedaqoji uğurlar artdı.

Professor Əli Allahverdiyevin bu dövrdə apardığı tədqiqatlar, əsasən, Azərbaycan iqtisadiyyatının inkişafının aktual problemlərinə, o cümlədən məhsuldar qüvvələrin yerləşdirilməsi, regionların inkişafı, ərazi-istehsal komplekslərinin səmərəli formalaşdırılması, ərazi planlaşdırma və iqtisadi rayonlaşdırma, sənayenin inkişafı və düzgün yerləşdirilməsi problemlərinə həsr olunmuşdur. Bu böyük alim respublikada gedən iqtisadi prosesləri dərindən izləyir, ölkə iqtisadiyyatının səmərəli inkişafı və dünya iqtisadiyyatına uğurla inteqrasiyası baxımından iqtisad elmi qarşısında duran vəzifələri dərindən araşdırır, elmi əsaslara və beynəlxalq təcrübəyə söykənən təkliflər, tövsiyələr verirdi.

Professor Əli Allahverdiyev fundamental, tətbiqi və ictimai elm sahələrinin dünya ölkələrində inkişaf xüsusiyyətlərini dərindən izləyərək təhlil etmiş və bu nəticəyə gəlmişdir ki, elm sahələrinin hər birinin özünəməxsus xüsusiyyətləri vardır və elmin inkişaf konsepsiyası hazırlanarkən, ona uyğun təşkilati formalar müəyyənləşdirilməli, səciyyəvi cəhətlər mütləq nəzərə alınmalıdır. Belə ki, inkişaf etmiş ölkələrdə iqtisadi münasibətlər sistemi artıq formalaşdığından orada bu qəbildən ciddi problemlər daha azdır.

Hər bir ölkədə tətbiqi elmlər, bir qayda olaraq, onun öz iqtisadiyyatının ehtiyaclarına uyğun istiqamətdə inkişaf etdirilir. Bu baxımdan Əli Allahverdiyev hesab edirdi ki, hər şeydən əvvəl Azərbaycan iqtisadiyyatının da elm tutumlu sahələri müəyyənləşdirilməli və tədqiqatlar həmin istiqamətlərə yönəldilməlidir.

Professor Allahverdiyev qeyd edirdi ki, Azərbaycanda elmi potensialdan səmərəli istifadə etmək və onu ictimai tərəqqinin mühüm hərəkətverici qüvvələrindən birinə çevirmək üçün qarşıda duran vəzifələrdən biri elmin təşkilati strukturunu yeni dövrün tələblərinə uyğun qurmaqdan, onu yüksək dərəcədə optimallaşdırmaqdan ibarətdir. Professor xüsusi vurğulayırdı ki, burada əsas məsələ tələb və məqsədlərin düzgün seçilməsidir. Yəni, hər şeydən əvvəl müəyyən olunmalıdır ki, biz elmin hansı sahələrindəki nailiyyətləri öz ölkəmizdə tətbiq etmək imkanlarına malikik. Deməli, fəaliyyət prosesində bir tərəfdən bizim üçün hansı elm sahələrinin üstün əhəmiyyət kəsb etdiyini, digər tərəfdən bizim texnologiyanın, istehsal prosesinin, elmin hansı inkişaf səviyyəsinə adekvat olduğunu nəzərə almalıyıq.

Elmi tədqiqatların mərkəzləşdirilmiş surətdə həyata keçirilməsinin ciddi üstünlüklərini, diqqətəlayiq nailiyyətlərini xüsusi vurğulayan professor Əli Allahverdiyev Elmlər Akademiyasını elmin təşkilinin önəmli və optimal forması kimi dəyərləndirirdi. Bununla yanaşı, o bildirirdi ki, ümumbəşəri elm prosesinə daxil ola bilməyən lokal struktur böyük uğurlar qazana bilməz, ona görə də biz yeni dövrün, zamanın tələblərinə daha çox cavab verən optimal təşkilati formalara, müasir təcrübəyə də biganə qalmamalıyıq.

Professor Allahverdiyev elmi-texniki tərəqqini həm müstəqil struktura malik bütöv bir sistem, həm də böyük miqyaslı ictimai istehsalın məhsuldar qüvvələrinin bütün elementlərinin təkamül prosesinin tərkib hissəsi hesab edirdi. Onun fikrincə, elmi-texniki tərəqqi sferasındakı səciyyəvi sosial hadisələr sosiologiyanın xüsusi sahəsi olan elm və elmi-texniki tərəqqi sosiologiyasının predmetini təşkil edir. Elmin texnika və istehsalatın sifarişlərini yerinə yetirən adi icraçıya çevrilməməsi üçün onun istehsalata bağlılığından və ondan asılılığından uzaq olmaq lazımdır.

Əli Allahverdiyev öz tədqiqatlarında kapitalın beynəlxalq miqrasiyasına iqtisadçıların "ideoloji" yanaşmasını ciddi tənqid edərək bildirirdi ki, alimlər indi kapitalın beynəlxalq sferada hərəkətinə dair fikirlərini baş verən real hadisələr və müşahidə edilən təmayüllər əsasında qurmalıdırlar. Alim yazırdı ki, dünya üzrə cəlb olunan xarici investisiyaların həcminə görə son onilliklərdə yeganə lider ABŞ-dır. Deməli, ölkələr xarici investisiya yatırmaqla deyil, həm də xaricdən investisiya cəlb etməklə daha məqsədəuyğun xarici iqtisadi fəaliyyət qururlar.

Professor Allahverdiyev bildirirdi ki, Azərbaycan özünün təbii resursları və yüksək iqtisadi potensialı ilə xarici iqtisadi əlaqələrin səmərəli inkişafında əlverişli şəraitə malikdir. Ölkəyə xarici investisiyaların axınına təsir edən şərait bir sıra kompleks amillərdən asılıdır. İnvestisiya şəraitini təşkil edən bu amillər sırasında iqtisadi inkişaf səviyyəsi, təbii resurslar, sosial-siyasi sabitlik, logistika imkanları, qanunvericilik bazası, risk təhlükəsinin aşağı olması xüsusi yer tutur.

Müstəqil Azərbaycan dövlətinin beynəlxalq nüfuzunun sürətlə artması, ölkəmizin dünya birliyində mühüm aktora çevrilməsi, iqtisadiyyatın davamlı inkişafı, əhalinin rifah halının yaxşılaşması, sahibkarlıq subyektlərinin iqtisadi müstəqilliyinin güclənməsi, yeni iş yerlərinin yaradılması, iqtisadi infrastrukturun təkmilləşdirilməsi professor Əli Allahverdiyevin tədqiqatlarının əsas mövzuları idi.

Yaxın-uzaq ölkələrin tanınmış iqtisadçı alimləri professor Əli Allahverdiyevin elmi-nəzəri irsini, çoxşaxəli tədqiqatlarını yüksək dəyərləndirmişlər. O, Rusiyada, Türkiyədə, Özbəkistanda, Gürcüstanda, Ukraynada keçirilən elmi konfrans və simpoziumlarda Azərbaycan elmini ləyaqətlə təmsil etmiş, dərin məzmunlu məruzələri ilə xüsusi diqqət mərkəzində olmuşdur.

Professor Əli Allahverdiyev sarsılmaz əqidəsi, polad iradəsi, elmi-intellektual potensialı, xeyirxahlığı, yüksək insani keyfiyyətləri ilə ölkəmizdə böyük nüfuz və hörmət qazanmış, vətənpərvər alim, gözəl ziyalı, təcrübəli pedaqoq və elm təşkilatçısı kimi tanınmışdır.

Böyük alim, müdrik insan, görkəmli şəxsiyyət professor Əli Allahverdiyevin dünyasını dəyişməsindən bir il ötür. Tanrı dərgahında məqamı uca olsun!

***Həsən HƏSƏNOV,***
***Tanrıverdi PAŞA***